# QƏBRİNƏ SAHİB ÇIXA BİLMƏDİYİMİZ ABBASQULU BƏY...



**Ortada Abbasqulu bəy əyləşib**

Uşaqlıq illərimizdən çox bəyəndiyimiz bir film var. Və o filmdə mərhum aktyor Həsən Məmmədovun ustalıqla yaratdığı Abbasqulu bəy Şadlinski obrazı canlanır. Fərman Kərimzadənin ssenarisi əsasında çəkil-miş "Axırıncı aşırım" filminin qəhrəmanları - Kərbalayi İsmayıl, Abbasqulu bəy, Xəlil, Qəmlo və başqa surətlər bir obraz kimi nə qədər çox bəyənilsələr də, bu şəxsiyyətlər və eləcə də filmin özü barədə mübahisələr hələ də davam etməkdədir. Səbəb isə çox sadədir. Sovetlər dövründə Azərbaycan tarixinin saxtalaşdırılması ilə yanaşı, həmçinin seçilən, tanınmış insanların da ictimai fəaliyyətinin, əsl məqsəd və məramının müxtəlif bəhanə-lərlə gizlədilərək millətsevərliklərinə, vətənpərvərlik-lərinə, xalq üçün gördükləri işlərə kölgə salınması prosesi aparılırdı. Bu gün heç birimizə sirr deyil ki, Əlinin papağını Vəlinin başına, Vəlinin papağınısa Əlinin başına qoymaqla həqiqətə yalan donunu məharətlə geyindirən Şura hökumətinin qanunları tələb edirdi Abbasqulu bəy kimi şəxsiyyətləri xalqa öz adı altında olsa da, tamam başqa prizmadan təqdim olunsun. Amma düşünürük ki, yaxın keçmişimizi bilən, əsasən erməni-müsəlman məsələləri ilə bağlı gerçəkləri yaddaş kitabının dumanlı səhifələrində hələ də vərəqləməyi bacaran insanlar az da olsa yaşayırsa, tarixi şəxsiyyətlər haqqında əsl həqiqətlərin öyrənilməsi və geniş ictimaiyyətə çatdırılması hər bir media nümayəndəsinin borcudur. Abbasqulu bəy Şadlinskinin həyatı və ölümü haqqında bir çox həqiqətləri açıqlayan yazımız da elə bu məqsədə xidmət edir.

Müsahibimiz Abbasqulu bəy Şadlinskinin nəticəsi sayılan 1966-cı ildən Tərtər rayonunun Borsunlu kəndində yaşayan Xırdaxanım Əliyevadır:

- Ata-babam əslən Qərbi Azərbaycanın Vedi bölgəsindəndir. Mən özüm də 1946-cı ildə Vedi rayonunun Taytan kəndində dogulmuşam. Abbasqulu bəylə bir tayfadan olan Ağamirzə bəyin nəvəsi, Yusif ağanın qızıyam. Amma kiçik yaşlarımdan Bakıda - o vaxt Ali Məhkəmədə hakim işləyən Əziz əminin ailəsində böyümüşəm. Əziz əminin həyat yoldaşı Ceyran xanım Ağamirzə bəyin böyük qızıydı. Əziz əmi ilə Ceyran bibinin uşaqları olmamışdı, ona görə də məni öz övladları kimi saxlayırdılar. Keçmişimiz haqqında nə bilirəmsə hamısını Ceyran bibimin söhbətlərindən eşitmişəm. O danışırdı ki, mənim atam Yusif ağa beş yaşında olanda anaları, əslən İran Azərbaycanından olan Fatmasura xanım dünyasını dəyişir. Həmin vaxt Ağamirzə bəyin bacısı Maçan xanım Abbasqulu bəy Şadlinskinin arvadı idi. Agamirzə bəy həyat yoldaşının ölümündən sonra ikinci dəfə evləndiyindən, bibisi beş yaşlı Yusif ağanı ögey ana yaxşı baxmaz deyə öz yanına aparır. Beləliklə atam Abbasqulu bəyin ailəsində böyüməli olur. Bibim danışırdı ki, Abbasqulu bəy atamı öz oğlanlarından seçməzmiş. Aralarında o qədər doğmalıq olub ki, atam yalnız Ağamirzə bəy öləndən sonra anası və bacı-qardaşları başsız qalmasınlar deyə öz ailəsinə qayıdıb.

**- Bəs, Abbasqulu bəyin özünün neçə övladı olub?**

- Abbasqulu bəyin birinci arvadı Nazlı xanım Calalı kürdüymüş, ondan uşağı olmayıb. İkinci dəfə atamın bibisi ilə evlənir və üç oğlu, bir qızı dünyaya gəlir. İskəndər, Məmməd, İsfəndiyar və Tacı xanım. İskəndər bəy müharibəyə gedib, qayıtmayıb. Məmməd bəyi o vaxtkı adamların dililə desək "vurğun vurub". Onlardan heç bir nişanə qalmayıb. Çavankən, heç evlənməmiş dünyadan köçüblər. İsfəndiyar bəy isə bir gözünün üstündə böyük xal olduğundan onu müharibəyə aparmayıblar. Son günlərə qədər İmişlidə yaşayıb. Uzun illər müəllim işləyib. İndi övladları,

nəvələri yaşayır orda. Nəvələrindən biri Abbasqulu bəyin adını daşıyır. Deyilənlərə ğörə görkəmi və xarakteri ilə də babasının eynidir.

**- Abbasqulu bəy Şadlinskidən sonra gələn şəcərələr hansı soyadı daşıyıblar?**
- Abbasqulu bəygil Şadlinski familiyasını daşıyıblar, amma repressiya illərində başqa-başqa soyadları götürənlər də olub. Tayfa bölünəndə, yəni məcburən hərə bir tərəfə üz tutanda deyiblər ki, filan-filan familiyalar bizimdi. Məsələn, Sultanovlar, Süleymanovlar, Əliyevlər, Tağıyevlər, Bəşirovlar, Canbazovlar… Yadımda qalanlar bu qədərdir mənim.

**- Abbasqulu bəy Şadlinskinin bir insan kimi xarakteri necə olub, həmçinin o, el-oba və ümumiyyətlə Vedi camaatı üçün kim olub?**
- Ceyran bibimdən eşitdiyimə görə Abbasqulu bəy xasyyətcə bir az sərt və ciddi adam olub. Amma Vedi camaatı üçün ata olub, qardaş olub, bir sözlə hər işlərinə yarayan, böyüklük eləyən, hər çətinlikdə köməklərinə çatan bir insan olub. O vaxtı çox cavanların Peterburqda təhsil almasına o səbəbkarlıq eləyib və həmişə onlardan maddi köməyini əsirgəməyib.

**- Abbasqulu bəy özü də təhsil almışdımı?**
- Hə, çar dövründə Peterburqda mühəndislik oxuyubmuş.

**- Ermənilər zaman-zaman müsəlman əhaliyə qarşı düşmən mövqeyində dayanıblar və bacardıqları qədər bir azca imkan düşən kimi bildiklərini eləyiblər. Bu baxımdan Abbasqulu bəyin Vedi camaatına hansı köməyi, yardımı olub?**
- Birinci növbədə Vedidə yaşayan müsəlman əhalinin silahlandırılması. O vaxtı bütün evlərdə silah olub. Yoxsa silahsız erməninin içində necə yaşamaq olardı? Sonra Abbasqulu bəy Şura hökumətinə işləyirmiş. Savadlı, vəzifəli adamıymış. Bütün mahalda hörməti, sambalı varmış. Ona görə də ermənilər həmişə ondan çəkiniblər, elə bir məqam axtarıblar onu aradan götürməyə. Bibim danışırdı ki, cəmi bir gün Abbasqulu bəy Vedidə olmamışdı, bunu bilən ermənilər müsəlman kəndlərinin birində böyük faciə törədiblər.

**- Necə?**
- Andranik başına buxara papaq qoyub dəstəsiylə gəlib kəndə. Ermənilərin çoxu da təmiz türk dilində danışa bilirdi. Özlərini müsəlman kimi qələmə verib adambaşına taxıl paylamaq adıyla camaatı yıgırlar kəndin içində böyük at tövləsi varmış ora. Tövlənin bir tərəfində atlar, bir tərəfindəsə kükürd tayları. Hamı gələndən sonra qapını bağlayıb tövləyə od vurublar. İndi təsəvvür eləyin də kükürd alışanda necə olur, hələ bir tərəfdə də atlar... Adamların çoxu elə atların ayağı altında tapdanıb ölür. O kənddən qalan təkcə səkkiz nəfər körpə olur, o da qundaqda. Sonra o körpələri bizim kənddə ailələrin arasında bölüb saxlayırlar.

**- Sizin fikrinizcə, Fərman Kərimzadənin təsvir etdiyi Abbasqulu bəy surəti ilə onu tanıyanların yaddaşındakı Abbasqulu bəy bir-birinə bənzəyirmi və tayfası, oğul-qızı «Axırıncı aşırım» filmindəki Şadlinskini qəbul etdilərmi?**
- Hardan? Qəbul etmədilər. Nə qədər narazılıqlar oldu. Çünki Şadlinski də, Kərbalayi da, Qəmlo da bir elin, bir elatın adamları idilər. Sonrakı nəsillər arasında düşmənçiliyə yol qoyulurdu burda. Hətta əsərin də, filmin də dəyişdirilməsi məsələsini qoydular. Aqam (atası Yusif ağaya işarədir) Fərman Kərimzadənin özü ilə də danışdı. Amma mümkün olmadı, dedi nə qədər zəhmət çəkilib, vəsait sərf olunub onlara, daha heç nə eləmək olmaz. Əslində heç Fərman Kərimzadədə də təqsir yoxuydu.

**- Bəs kimdəydi təqsir?**
- Abbasqulu bəyi ermənilər öldürmüşdülər, amma o vaxt belə sözü demək olmazdı axı. Məsələni ört-basdır eləmək üçün Kərbalayi İsmayılın, həmçinin Qəmlonun adından istifadə eləmişdilər.

**- Deməkki, məntiqi baxımdan bir daşla iki quş vurmuşdular. Həm ermənilərin əməlini ört-basdır eləmişdilər, həm də Şura hökumətinin qurulması ilə bağlı tayfa arasındakı narazılıqları qabardıb düşmənçilik səviyyəsinə qaldırmışdılar. Həm də bunu bir azərbaycanlı yazıçının qələmi ilə tarixin səhifələrinə həkk eləmişdilər.**

- Doğrudur. Çünki o vaxtı Şura hökumətinə işləyən təkcə Abbasqulu bəy imiş. Qohum tayfaların heç biri, həmçinin Ağamirzə bəy də bu hökuməti qəbul etməmişdilər. Elə ona görə də Abbasqulu bəydən sonra bizim tayfadan sürgünə gedənlər çox olub. Elə mənim atam da gimnaziya bitirmişdi, Peterburqda oxumuşdu, amma ölənə qədər onu Kommunist Partiyasının sıralarına qəbul etmədilər.

**- Kərbalayi İsmayılla, həmçinin Qəmlo ilə, Abbasqulu bəyin arasında hər hansı bir narazılıq olduğu barədə bibinizdən nəsə eşitmisinizmi?**

- Qətiyyən! Qəmlo heç bizim tayfadan olmayıb, o, Calalı kürdüymüş. Kərbalayi İsmayılla isə, Abbasqulu bəyin çox yaxşı münasibəti olub. Elə kinoda da deyilir də, Kərbalayi İsmayılın oğlunun meyidini Abbasqulu bəy alıb özlərinə verir. Amma indiyə qədər heç yerdə deyilməyən, yazılmayan bir sirri açım sizə. Kərbalayi İsmayılın oğlanlarından biri, dəqiq yadımda qalmayıb Məhərrəmmi, yoxsa Yadullamı, Ceyran bibimin 16 yaşı olanda, onu götürüb qaçırır. Hadisəni görənlər olur. Ağamirzə bəyin adamlarından da bir neçə atlı düşür bunların ardınca. Var gücləri ilə atları qovurlar ki, Kərbalayının hasarını keçməmiş qızı aparanlara çatsınlar. O vaxlar belə bir adət varmış ki, əgər qız qaçırılıb aparıldığı evin hasarını keçibsə, onu əldən alıb geri - atası evinə qaytarmaq qız evi üçün çox böyük namussuzluq sayılırmış. Nə isə, Kərbalayinin həyətinə adlamamış Ağamirzə bəyin atlıları Ceyran bibini qaçıranlara çatıb qızı alırlar və elə səhərisi gün Əziz əminin elçiləri gəlir, bibimin "hə"sini verirlər…Sözüm ondadır ki, Kərbalayi İsmayılın oğlu öldürüləndə, onu Abbasqulu bəydən və Ağamirzə bəydən görmüşdülər. Amma sonra ağsaqqallar Quran aparıb and içiblər ki, bu ölüm bizlik deyil. Məsələ bununla da bitib. Sonradansa məlum olub ki, oğlanı ermənilər doğrayıblar.

**- Abbasqulu bəyin ölümü necə və harda olub, bu barədə nəsə bilirsinizmi?**

- Həmişə getdiyimiz yaylağa yaxın, "Qaratorpaq" deyilən yerdə öldürülüb Abbasqulu bəy. Həmin hadisə baş verəndə atam təxminən altıncı-yeddinci sinifdə oxuyan uşağımış. Onun yaxşı yadındaydı. Danışırdı ki, Abbasqulu bəy başının dəstəsilə gəlirmiş. Deyilən yerə çatanda görüb ki, yolun bir tərəfində ermənilər pusqu qurub, o biri tərəfdə isə onun gəlişini ermənilərə xəbər verən satqınlar. Orda atışma olub, Abbasqulu bəy, Xəlil və başqa bir nəfər vurulandan sonra sıldırım qayadan uçuruma yuvarlanıblar. Nə qədər ki, müsəlmanlar orda yaşayırdı, həmin uçurumun yanından keçən bütün maşınlar dayanardı, dağdan gələnlər də, dağa gedənlər də həmin yerə gül atardılar. Hətta son illərdə Qarabağ savaşında şəhid olan oğlum da ğedib həmin yerə gül atmışdı. Gələndə mənə dedi ki, ana, Abbasqulu babanın öldüyü yeri ziyarət elədim.

**- Məzarı hardadır Abbasqulu bəyin?**

- Vedi rayonunda "zavodun yanı" deyilən yerdəydi, indi yəqin ki, ermənilər dağıtmış olarlar. Elə yeri gəlmişkən bir əhvalatı da danışım sizə. Sovet dövründə atam Vedidə "İspalkom"un sədri işləyən vaxtı, İrəvanda kənd təsərrüfatı sərgisi keçirilirmiş. Atam da orda iştirakçıymış. Baxır ki, Abbasqulu bəyin şəklini qapının ağzında qoyublar, gələn-gedənə erməni xalqının düşməni kimi təqdim eləyir və şəkli təhqir edirlər. Ondan sonra atam gəldi, İsfəndiyar bibioğlu ilə danışdı ki, Abbasqulu bəyin məzarını Azərbaycana köçürsünlər. Amma Minasyan (Vedidə raykom katibi olub) icazə vermədi, guya qəbrin açılması ekologiyaya ziyan vura bilər. Atam Abbasqulu bəyin heykəlinin Vedidə qoyulması məsələsini də qaldırmışdı, ermənilər ona da imkan vermədilər. Amma özləri İrəvanda Andranikə "erməni xalqının mili qəhrəmanı" kimi heykəl qoymuşdular.

Xırdaxanım Əliyeva bizə danışdığı əhvalatların bir çoxunu və Azərbaycanın hər tərəfinə səpələnmiş tayfalarının keçmişi haqqında eşidib-bildiklərini yazıb saxlayır. Özlərindən sonra gələn nəsillərinin gənc nümayəndələrinə bir bilgi olsun deyə. Biz də Abbasqulu bəy Şadlinski haqqında eşitdiklərimizi yazdıq. Yazdıq, çünki Abbasqulu bəy bir elin, bir elatın deyil, bütöv Azərbaycan

xalqının qəhrəmanıdır, qəbrinə belə sahib çıxa bilmədiyimiz qəhrəmanı. Yazdıq ki, nə vaxtsa Moskvanın diktəsi ilə təhrif olunmuş həqiqətlər heç olmasa indi - müstəqil olduğumuz vaxtda aydınlığa çıxsın. Aydınlıqda olaq həmişə!



**Abbasqulu bəylə bir tayfadan olan Ağamirzə bəyin qızı Ceyran xanım və əri Əziz bəy**



**Ceyran xanın ailəsilə**





**Abbasqulu bəyin qohumları**